## BAŞ REDAKTORDAN

*Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır ...*

*Heydər Əliyev*

Azərbaycan xalqı bəşər tarixinə dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı, dünya elmini, mədəniyyətini daim zənginləşdirmiş, insanları maarifləndirmişdir. Lakin Azərbaycan xalqının geniş miqyasda, kütləvi surətdə maariflənməsi prosesi XX əsrin əvvəlindən başlanmışdır. Bu prosesdə Azərbaycanın ilk ali məktəbinin - Bakı Dövlət Universitetinin yaranması əlamətdar bir hadisə olmuşdur. Bakı Dövlət Universiteti 90 illik tarixi ərzində Azərbaycan xalqı və dövləti qarşısında böyük xidmətlər göstərmiş və Azərbaycanın bu günki səviyyəyə gəlib çatmasında böyük işlər görmüşdür.

Hazırda Azərbaycanda 49 ali məktəb fəaliyyət göstərir ki, bunlardan 34-ü dövlət, 15-i isə özəl təhsil müəssisəsidir. Ali məktəblərdə bakalavr pilləsində təhsil alan 128.000 nəfər tələbədən 18.000 nəfəri BDU-nun payına düşür. Ölkəmizdə 1.000-dən çox elmlər doktoru var ki, onların da 300-ə yaxını, 6 min elmlər namizədindən 1.000 nəfəri BDU-da çalışır. Bu fakt həm elmi potensial, həm də tələbə sayı baxımından Bakı Dövlət Universitetinin ön sıralarda olmasının təkzibolunmaz göstəricilərindəndir.

2009-cu ilin oktyabr ayında Respublikamızın tədris müəssisələrinin flaqmanı, aparıcı təhsil ocağı, zəngin tarixi keçmişə malik olan Bakı Dövlət Universitetinin təsis edilməsinin 90 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il aprel ayının 24-də "Bakı Dövlət Universitetinin 90 illik yubileyi"nin keçirilməsi haqqında imzaladığı sərəncamda qeyd edir ki, "Bakı Dövlət Universiteti müsəlman Şərqində ilk Avropa tipli ali məktəb kimi yarandığı vaxtdan bəri ötən müddət ərzində ölkəmizdə ali təhsilin və elmin tərəqqisi naminə əvəzsiz xidmətlər göstərmişdir. Yüksək ixtisaslı milli kadrların hazırlanması, yeni-yeni elmi istiqamətlərin formalaşdırılması, dünya təhsil məkanına inteqrasiya, eləcə də mədəni-mənəvi dəyərlərimizin yaşadılması istiqamətlərində Universitet üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlir. Azərbaycanın simasını müəyyən edən dövlət, elm və mədəniyyət xadimlərinin böyük bir qismi məhz Bakı Dövlət Universitetinin yetirmələridir. Xalqımızın milli sərvətinə çevrilən Universitet bu gün dövlət idarəçiliyi, iqtisadiyyat, elm, təhsil və mədəniyyətin müxtəlif sahələrində uğurla çalışan çoxsaylı məzunları ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir".

Həqiqətən də Azərbaycanda bir çox sahələrin inkişafında Bakı Dövlət Universitetinin xidmətləri əvəzsizdir. Universitetin 90 illik tarixi Azərbaycan Respublikasının elminin, mədəniyyətinin, təhsilinin inkişafı tarixidir. İlk tədris ilini 2 fakültə ilə (tarix-filologiya, tibb fakültələri), 42 müəllim və 1.094 tələbə ilə başlayan Bakı Dövlət Universitetində hazırda 18.000-ə yaxın tələbənin təhsil aldığı 16 fakültə fəaliyyət göstərir. Bu fakültələrdə müxtəlif elmi istiqamətlərdə bakalavr pilləsində 55, magistratura pilləsində isə 153 ixtisas üzrə mütəxəssislər hazırlanır. Universitetdə təhsil prosesi demokratik prinsiplərə əsaslanan sərbəst düşüncəli, yaradıcı insanların hazırlanmasına yönəlmişdir. Hər il Bakı Dövlət Universitetinə qəbul olmaq üçün orta hesabla hər tələbə yerinə 3 abituriyent, bəzi ixtisaslarda isə hətta 10 abituriyent sənəd verir; Azərbaycan Respublikası Prezidenti tərəfindən təhsildə yüksək göstəricilər əldə edən tələbələr üçün təsis edilmiş "Prezident təqaüdçüsü" adına layiq görülən 100 nəfər I kurs tələbəsindən təxminən 40 nəfəri BDU-ya daxil olur.

Universitetin elmi kitabxanası 2,5 milyondan artıq ədəbiyyatı olan fonda malik olmaqla, 12 qiraət zalı, 5 abonement şöbəsi ilə müntəzəm olaraq müəllim və tələbələrin ixtiyarındadır.

Bakı Dövlət Universiteti yüksək ixtisaslı kadrlar hazırlamaqla bərabər, həm təbiət, həm də humanitar elm sahələri üzrə 123 kafedranı, 200-dən çox elmi əməkdaşı olan 37 elmi-tədqiqat və tədris laboratoriyasını, Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat Institutunu və Fizika Problemləri Elmi-Tədqiqat Institutunu özündə birləşdirən, Azərbaycan dili, ədəbiyyatı və tarixinin klassik məsələlərindən tutmuş genetika, nanotexnologiya, nanomaterialların alınmasınadək çox geniş spektrdə mövzuları əhatə edən, elmi araşdırmalar həyata keçirən böyük elmi mərkəzdir.

Bakı Dövlət Universiteti yaradıldığı 1919-cu ildən bu günə qədər Azərbaycanda mütərəqqi fikrin, milli düşüncənin mərkəzi olmuşdur. Universitetinin 75 illik yubiley tədbirlərində iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Universitetimizin xalqımızın ictimai-siyasi həyatında əhəmiyyəti və rolunu xüsusi qeyd edərək demişdi ki: "Bakı Dövlət Universitetinin auditoriyalarında, dərs otaqlarında, kafedralarında Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli ruhunun inkişaf etdirilməsi üçün çox işlər görülmüşdür. ... öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən,

elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəliyə getməsinə xidmət göstərir. Azərbaycanda milli azadlıq hərəkatının yaranması, meydana çıxması, inkişaf etməsi, tariximizin səhifələrinin təxribatdan, təhrifdən qorunması, əsrlərdən-əsrlərə xalqımızın böyük tarixə, böyük mədəniyyətə malik olması, böyük mənəviyyat sahibi olması - bunlar hamısı XX əsrdə alimlərimizin, müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur. Bu sahədə Bakı Dövlət Universitetinin xidmətləri çox böyükdür və mən bu gün onu xüsusi qeyd etməyi lüzumlu hesab edirəm".

BDU-nun beynəlxalq əlaqələri də gündən-günə genişlənir. Hazırda Universitet keçmiş SSRİ-nin bir çox Universitetlərini özündə birləşdirən Avroasiya Universitetlər Assosiasiyasının, Xəzəryanı Ölkələr Universitetləri Assosiasiyasının, Qara Dəniz Universitetləri (BDU 2002-2004-ci illərdə QDU Assosiasiyasına çox uğurla rəhbərlik etmişdir) Assosiasiyasının, Avropa Universitetləri Assosiasiyasının üzvüdür. Bundan əlavə, Universitet M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Orta Doğu Teknik Universiteti, Nitsa-Sofiya Antipolis Universiteti, İndiana Universiteti, Kiyev Milli Universiteti, Vyana Universiteti və digər Universitetlərlə ikitərəfli müqavilələr əsasında hərtərəfli elmi-texniki, müəllim-tələbə mübadiləsi sahəsində əməkdaşlıq edir. Universitetin diplomu dünyanın 50-dən artıq ölkəsində tanınır. İndiyədək Universitetin 51 ölkədən 10.000-dən çox məzunu olub. Hazırda 14 ölkədən 1.300 tələbə, magistrant, aspirant, doktorant, stajor BDU-da təhsil alır. Bunların sırasında Yaponiya, Çin, Türkiyə, İran və bir sıra Avropa dövlətlərindən olan tələbələr var. Eyni zamanda Universitetin tələbələri, magistrant və aspirantları ABŞ, Almaniya, Türkiyə, Fransa, Böyük Britaniya və Çin Xalq Respublikasının Universitetlərində təhsillərini davam etdirirlər.

Bakı Dövlət Universiteti həmçinin özünün məzunları ilə fəxr edir. Yüzlərlə tanınmış alimlər, ziyalılar, görkəmli diplomatlar Bakı Dövlət Universitetində təhsil almışlar. BDU-nun hazırki rektoru akademik Abel Məhərrəmovun "Biz fəxr edirik ki, Ümummilli lider Heydər Əliyev Universitetimizin məzunu olub" sözlərinə bütün Universitet kollektivinin qoşulduğunu tam əminliklə deyə bilərik. Eyni zamanda bir çox ictimai-siyasi xadimlər Universitetin fəxri doktorları adına layiq görülüblər. Onların arasında dünyanın bir çox görkəmli siyasi və dövlət xadimləri, məşhur elm və təhsil nümayəndələri vardır (məsələn, YUNESKO-nun prezidenti Frederiko Mayor, amerikalı doktor Lütfi-zadə, fransalı İren Məlikova, polşalı Tadeuş Svyatoçovski, iranlı doktor Cavad Heyət, almaniyalı Əhməd Şmide və b.).

Bakı Dövlət Universiteti həmçinin respublikamızın ictimai-siyasi və elmi-pedaqoji həyatında fəal rol oynayır. Elə bir ümumdövlət tədbiri yoxdur ki, Universitet alimləri, bütövlükdə Universitet kollektivi orada fəal iştirak etməsin. Son illərin sosial-iqtisadi çətinliklərini, erməni təcavüzünün məhrumiyyətlərini dəf etmək üçün Universitet kollektivi bütün ümumrespublika tədbirlərində fəal iştirak etmiş, qaçqınlara maddi və mənəvi köməkliklər göstərmiş, müntəzəm olaraq döyüş bölgələrinə getmişdir. Yurdunu-yuvasını tərk etməyə məcbur olmuş qaçqınlardan 3.000 nəfəri indiyədək Universitetin tələbə şəhərciyində yaşamaqdadır. Qaçqın uşaqları üçün Universitetdə 300 nəfərlik orta məktəb təşkil edilmişdir. Universitetin 30 nəfərdən çox tələbəsi Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.

Artıq Universitetin yubileyi ilə bağlı hazırlıq işləri yekunlaşmaq üzrədir. Oktyabr ayının sonunda yubiley münasibətilə Bakıda beynəlxalq elmi simpozium keçiriləcəkdir. Bu münasibətlə dünyanın müxtəlif elm mərkəzlərindən, Universitetlərindən paytaxtımıza çoxsaylı qonaqlar gələcəkdir. Eyni zamanda Universitet rəhbərliyi yubiley tədbirlərinin Azərbaycanın bir çox bölgələrində, eləcə də Azərbaycandan kənarda geniş şəkildə keçirilməsini də nəzərdə tutmuşdur. Bu isə təsadüfi deyil. Belə ki, Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək: Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır və onun yubileyi bütün Azərbaycan xalqının böyük bayramıdır.

Biz də öz tərəfimizdən "Tarix və onun problemləri" elmi, nəzəri, metodik jurnalın baş redaktoru, redaksiya şurası və redaksiya heyəti olaraq doğma Universitetimizin 90 illik yubileyinə həsr etdiyimiz hazırki sayımızı bütün Universitet kollektivinə və həmkarlarımıza təqdim edirik. Bir daha əminliklə bildiririk ki, Bakı Dövlət Universiteti indiyə qədər olduğu kimi gələcəkdə də elmimizin, təhsilimizin ön sıralarında olacaqdır.